**2023-cü il bir çox əlamətdar hadisələrlə yaddaşlara və tarixə həkk olunacaq. Ölkəmizin həyatında istər dövlətçilik, istərsə də iqtisadi yüksəliş baxımından zəngin bir il yaşayırıq. Bu il həm də müasir Azərbaycan dövlətinin qurucusu ulu öndər Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı olduqca maraqlı tədbirlər həyata keçirilir. Ümummilli liderin ölkəmizin çiçəklənməsi və müstəqilliyi istiqamətində gördüyü işlər hər hansı tədbirə, təqvimə sığmır.**

Yusif Qazıyevin "Heydər Əliyev ideyaları əbədiyaşardır" kitabında ulu öndər Heydər Əliyevin dövlətçilik fəaliyyəti, cəsarətli siyasi gedişləri, müstəqil dövlət quruculuğu uğrunda apardığı mübarizədən söhbət açılır. Eyni zamanda ümummilli liderin bu yolda qarşılaşdığı haqsızlıqlara, xəyanətlərə və çətinliklərə də toxunulur. Kitabı maraqlı və oxunaqlı edən cəhətlərdən biri də, ulu öndər Heydər Əliyevin müdrik və hikmətli sözlərindən bəhs olunmasıdır.

Kitabı vərəqlədikcə Heydər Əliyevin dövlət quruculuğu sahəsindəki fəaliyyətinə, eyni zamanda müxtəlif dövrlərdə xarici diplomat və dövlət başçılarının ulu öndər haqqında ürək sözlərinə, dəyərli fikirlərinə də rast gəlirik. Dünyanın bir çox dövlət rəhbərləri ulu öndərə hər zaman hörmət və ehtiramla yanaşmışlar. Bu gün də Heydər Əliyev dühası lider dövlətlərin rəhbərləri tərəfindən ehtiramla anılır. Həmçinin kitabda bu dahi şəxsiyyətin Vətən sevdalısı olmasından da geniş şəkildə bəhs olunur. 34 il Azərbaycan dövlətinin inkişafına və möhkəm dayaqlar üzərində bərqərar olmasına bütün varlığı ilə çalışan ulu öndərin fəaliyyətinin işıqlandırılması baxımından kitab olduqca böyük əhəmiyyət kəsb edir. Müəllifin fərqli zamanlarda Heydər Əliyev haqqında çap edilmiş məqalələri də kitabda yer alır. Yusif Qazıyev kitabda təkcə Heydər Əliyev dühası haqqında yazmaqla kifayətlənməmiş, həmçinin o, ulu öndərin siyasi kursunun davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin də fədakar fəaliyyətinə toxunmuşdur. Kitab Yusif Qazıyevin ulu öndər Heydər Əliyevin 100 illik yubiley ilinə ən dəyərli töhfəsidir.




**Ramidə YAQUBQIZI,**
**"Respublika".**